**Azərbaycan Xalq Parlamentinin**

**İntizam Komissiyasının**

**QƏRARI**

Azərbaycan Xalq Parlamentinin (AzXP) sədri cənab Abid Qafarov AzXP Reqlamentinin 16.1 maddəsinə əsasən bir sıra millət vəkillərinin davranışlarını araşdırıb qiymətləndirmək haqqında AzXP İntizam Komissiyasına müraciət ünvanlayıb.

AzXP İntizam Komissiyası AzxP Nizamnaməsinin 6.5.2 və AzXP Reqlamentinin 16.1, 24.10 maddələrini və "AzXP-yə namizədin və Xalq Parlamentinin millət vəkilinin etik davranış qaydaları haqqında" Təlimatı əsas götürərək AzXP Sədrinin yuxarıda adı çəkilən Müraciətinə öz iclasında baxaraq, qəbul etdiyi Rəyi AzXP iclasına təqdim edir:

1. AzXP millət vəkili Tural Sadıqlı haqqında

Tural Sadıqlı 11.01.2025-ci il tarixli AzXP-nin ilk sessiyasının ilk iclasına həmsədrlik edib. İclasın video yazısında aydın görünür ki, Tural Sadıqlı özünün həmsədrlik etdiyi iclası dağıtmaq, prosesi yarımçıq qoymaq, Rəyasət Heyətinə keçirilən seçkiləri şübhə altına almaq, xalqın seçdiyi millət vəkillərinə şər-böhtan atmaq və qara yaxmaqla Xalq Parlamentinin nüfuzuna xələl gətirməyə çəhd edib. Həmçinin, bu iclasdan sonra Tural Sadıqlı dəfələrlə rəhbərlik etdiyi Youtube kanalında apardığı efirlərində AzXP-yə, AzXP Təşəbbüs Qrupuna və AzXP millət vəkillərinin ünvanına nalayiq sözlər işlədib, onları iştimai şəkildə təhqir edib və hədələyib. Tural Sadıqlı bununla da kifayətlənməyərək, AzXP-nin təsis olunmasında önəmli rolları olan, onun özünün də üzvü olduğu və imzaladığı, efirlərdən birgə əməkdaşlıq haqqında dəfələrlə səsləndirdiyi Media Birliyi sazişinə daxil olan AzerFreedom TV və ABA Media TV kanalları ilə aralarında yazılı və video razılıqları olmasına rəğmən onlardan Youtube şirkətinə şikayət edərək bu kanalların bağlanmasına cəhd göstərib, bunla da, istəyinə nail olmasa da, Azərbaycan Xalq Parlamentinin informasiya dəstəyindən məhrum etməyə çalışmışdır.

İntizam Komissiyası AzXP-nin adı çəkilən iclasının və Tural Sadıqlı tərəfindən təşkil edilən proqramların video yazılarına təkrar baxılaraq, belə nəticəyə gəlir ki, millət vəkili Tural Sadıqlının bu hərəkətləri "AzXP-yə namizədin və Xalq Parlamentinin millət vəkilinin etik davranış qaydaları haqqında" Təlimatla, AzxP Nizamnaməsinin 7.7 və AzXP Reqlamentinin 16.1, 24.10 maddələri ilə bir araya sığmır. Tural Sadıqlının bundan sonra fəaliyyətini AzXP-də millət vəkili kimi davam etməsi məqsədə uyğun deyil. Xatırlatmalıyıq ki, o, ilk toplantıdan başqa Parlamentin toplantılarından heç birində iştirak etməmişdir.

Qeyd edilənlər əsas götürülərək İntizam Komissiyası AzXP Reqlamentinin 16.2 maddəsinə əsasən Tural Sadıqlının Millət vəkili mandatından məhrum edilməsi haqqında məsələyə baxılması üçün Xalq Parlamentinə müraciət edir.

2. AzXP millət vəkili Əlövsət Sadıqlı haqqında

Əlövsət Sadıqlı tərəfindən 11.01.2025-ci il tarixli AzXP ilk sesiyasının ilk iclasını mənasız diskussiyalarla uzadılması, Nizamnamənin müzakirəsi zamanı Reqlamentin maddəsini

biləərəkdən müzakirəyə çıxararaq vaxtın uzadılmasına səbəb olması, iclasa sədrlik edən öz oğlu Millət Vəkili Tural Sadıqlı ilə növbəli şəkildə birləşərək pozuculuq fəaliyyətləri, iclas bitəndən sonra isə oğlunun sədrlik etdiyi iclasda "yol verilmiş xətalar"a görə AzXP Rəyasət Heyətini, AzXP Təşəbbüs Qrupunu qaralayaraq qarayaxma, şər-böhtan xarakterli pozuculuq fəaliyyətləri AzXP İntizam Komissiyası tərəfimizdən araşdırıldı və öz təsdiqini tapdı. Həmçinin o da məlum oldu ki, Əlövsət Sadıqlı Parlamentin müzakirəsinə təqdim edilən Nizamnamə layihəsinin müəllifi olduğunu əsas gətirib, layihə müəllifi kimi sənədin müzakirəsinə müxtəlf bəhanələrdən istifadə etməklə sənədi geri çəkəcəyi ilə toplantı iştirakçılarını şantaj etməkdən belə çəkinməyib. Əlövsət Sadıqlı həm də AzXP rəsmi Vatsap qrupunda və bəzi televiziya kanallarında AzXP Rəyasət Heyətinin legitimliyini şübhə altına almağla bir neçə Millət Vəkilini də özünün bu əməllərinə haqq qazandırmağa təhrik etməklə toplantının işini sabitaj etməyə cəhd edib. Əlövsət Sadıqlının bu hərəkətləri "AzXP-yə namizədin və Xalq Parlamentinin millət vəkilinın etik davranış qaydaları haqqında" Təlimata, AzxP Nizamnaməsinin 7.7 və AzXP Reqlamentinin 16.1, 24.10 maddələrinə tamamilə ziddir.

Bununla belə diqqətinizə çatdırmalıyıq ki, İntizam Komissiyasına, 8.02.2025-ci il tarixində AzXP-nin deputatı Əlövsət Əhəd oğlu Sadıqlı tərəfindən də şikayət ərizəsi daxil olmuşdur. Ərizədə göstərilir: 25.01.2025-ci il tarixdə səs yazısı vasitəsilə göndərdiyim şikayətdə də qeyd etmişdim ki, Hesablayıcı Komissiyanın keçirdiyi seçkidə seçildiyiniz üçün (tərkibinizdə çoxluğun qruplaşma üzvü olduğunu və hər birinizin hüquq sahəsinə heç bir aidiyyatınızın olmadığını bilməyimə baxmayaraq) sizi AzXP-nin yeganə legitim strukturu kimi tanıyıram, şikayətimə isə ədalət və hüquq çərçivəsində baxa biləcəyinizə etimadım yoxdur. Təəssüf ki, səsli müraciətimə (şikayətimə) münasibət və məndən qeyri-qanuni olaraq edilən tələb – AzXP-nin heç bir hüquqi sənədində olmayan yazılı müraciət tələbi etimadsızlıq barədə ehtimalımı təsdiqləmiş oldu... Hər bir halda, bəhanələrin aradan qaldırılması məqsədilə yazılı şikayətimi təqdim edirəm: 1.11.01.2025-ci il tarixdə (AzXP-nin birinci çağırış, ilk sessiyasının ilk iclasında) edilmiş hüquq pozuntuları və bu pozuntuların mənfi nəticələrinin aradan qaldırılması ilə bağlıdır.
Dəyərli Millət Vəkilləri!
Ərizə bir neçə səhifədən ibarət olduğu üçün sizin vaxtınızı alıb buradan, bu yüksək tribunadan səsləndirilməsini məqsədə uyğun hesab etməsək də, gəldiyimiz nəticələri sizin diqqətinizə çatdırmaq istərdik.

Şikayət İntizam Komisiyasında araşdırıldı və belə nəticəyə gəlindi ki, şikayət tamamilə əsassızdır və müəllifin şəxsi təxəyyülünün məhsulundan başqa bir şey deyildir. Onun bir sıra millət vəkilləri ilə bağlı qaldırdığı məsələlər isə, şəxsən onun özünün Parlamentdə biləərəkdən yaradılmasına cəhd etdiyi mühitin nəticəsində yaranmış fəsadlardır. Ərizədə haqqlarında şikayət edilmiş Millət Vəkillərinin hamısı Parlamentin mənafeyini müdafiə etmək məqsədi ilə bu cür hallara yol vermək məcburiyyətində qalmışlar. Bununla da, şikayət ərizəsi rədd edilməlidir.
Xatırlatmalıyıq ki, Əlövsər Sadıqlı, ilk toplantıdan başqa bu vaxtadək Parlamentin toplantılarından heç birində iştirak etməmişdir.

Qeyd edilənləri nəzərə alıb, Əlövsət Sadıqlının millət vəkili kimi öz fəaliyyətini AzXP-də davam etdirməsi mümkünsüz olduğuna görə, AzXP İntizam Komissiyası AzXP Reqlamentinin 16.2

maddəsinə əsasən onun Millət vəkilinın mandatından məhrum edilməsi haqqında məsələyə baxılması üçün Xalq Parlamentinə müraciət edir.

3. AzXP Millət Vəkili Marif Ağaməmmədov haqqında

Maarif Ağaməmmədov 11.01.2025-ci il tarixli AzXP ilk Sessiyasının ilk iclasında və ondan sonra sosial şəbəkələrdə və TV kanallarda, eləcə də AzXP rəsmi vatsap qruplarında AzXP və millət vəkillərinə ünvanlanmış şər-böhtan və təhqir xarakterli müraciətləri və Xalq Parlamentinin legitimliyini şübhə altına almaq cəhdləri, AzXP-nin təsis olunmasında payı olmuş “Azerfreedom TV” kanalını ”casus və şər yuvası” adlandıraraq təcili bağlanması üçün açıq çağırışlar etməsi, kanalın rəhbərini etik normalara sığmayan nalayiq sözlərlə təhqir etməsi Millət Vəkilliyi statusu ilə uyğun deyildir. Maarif Ağaməmmədovun bu hərəkətləri “AzXP-yə namizədin və Xalq Parlamentinin millət vəkilinın etik davranış qaydaları haqqında” Təlimata, AzxP Nizamnaməsinin 7.7 və AzXP Reqlamentinin 16.1, 24.10 maddələrində nəzərdə tutulanlarla bir araya sığmır.

Xatırlatmalıyıq ki, o, ilk toplantıdan başqa Parlamentin toplantılarından heç birində iştirak etməmişdir.

Qeyd edilənləri nəzərə alıb AzXP İntizam Komissiyası AzXP Reqlamentinin 16.2 maddəsinə əsasən Maarif Ağaməmmədovun Millət vəkilinın mandatından məhrum edilməsi haqqında məsələyə baxılması üçün Xalq Parlamentinə müraciət edir.

4. AzXP Millət Vəkili Rəşad Dadaşov haqqında

Rəşad Dadaşovun 11.01.2025-ci il tarixli AzXP ilk Sessiyasının ilk iclasın gedişatında Xalq Parlamentini “bardaqxana” və “çayxana” adlandıraraq toplantı iştirakçılarını təhqir etməsi, Tural Sadıqlının heç bir əsas olmadan “seçkini şübhə altına almaq” cəhdinə dəstək verməsi və s bu kimi hərəkətləri “AzXP-yə namizədin və Xalq Parlamentinin millət vəkilinın etik davranış qaydaları haqqında” Təlimata, AzxP Nizamnaməsinin 7.7 və AzXP Reqlamentinin 16.1, 24.10 maddələrində nəzərdə tutulanlara ziddir. Xatırlatmalıyıq ki, o, ilk toplantıdan başqa Parlamentin toplantılarından heç birində iştirak etməmişdir.

Qeyd edilənləri nəzərə alıb AzXP İntizam Komissiyası AzXP Reqlamentinin 16.2 maddəsinə əsasən Rəşad Dadaşovun AzXP Millət vəkilinın mandatından məhrum edilməsi haqqında məsələyə baxılması üçün Xalq Parlamentinə müraciət edir.

5. AzXP Millət Vəkili Könül Əhmədova haqqında

Könüm Əhmədova heç bir istinada dayanmadan AzXP millət vəkillərinin ünvanına qarayaxma xarakterli videoları “AzXP Deputatlar” WhatsApp qrupunda bütün xəbərdarlıqlara baxmayaraq davamlı olaraq paylaşması parlamentin işinə pozucu müdaxilə etməsi onun da AzXP Nizamnaməsinin 7.7.2. maddəsinə əsasən intizam məsuliyyətinə cəlb edilməsini, ona son xəbərdarlıqla təhmət verilməsini zəruri edir.

AzXP İntizam Komissiyası xüsusilə qeyd edir ki, yuxarıda adları qeyd edilən şəxslərin əməlləri ictimai qaydada (iclaslarda, efirlərdə və vatsap qruplarında) baş verdiyinə görə əlavə təqdimat üçün hər hansı xüsusi dəlillərə ehtiyac yoxdur.

Bu Rəyə əsasən, İntizam Komissiyası Azərbaycan Xalq Parlamentinin  Nizamnaməsi və Reqlamentini eləcə də,  AzXP-yə namizədin və Xalq Parlamentinin Millət Vəkilinın etik davranış qaydaları haqqında" Təlimatı əsas götürülməklə adları çəkilən şəxslər haqqında müvafiq addımlar atmasını vacib hesab edir.

Azərbaycan Xalq Parlamentinin İntizam Komisiyasının üzvləri:

1. Teymur Eminbəyli- sədr

2. Təranə Səfərsoy- sədr muavini

3. İlqar Hüseynli- katib

4. Validə Əhmədova-üzv

5. Eldar Həmidov – üzv

14 fevral 2025-ci il